# Talassemiya

Gənclər üçün məlumat



TALASSEMİYA
VALİDEYNLƏRDƏN UŞAQLARA
GENLƏR VASİTƏSİLƏ KEÇƏN İRSİ QAN XƏSTƏLİYİDİR.

Bu xəstəliyə yoluxmaq mümkün deyil, çünki xəstəlik nəsildən-nəsilə ötürülür.

Valideynlərdən biri talassemiya daşıyıcısı olduqda onların övladlarından bəziləri **talassemiya daşıyıcısı** ola bilər. Valideynlərin hər ikisi talassemiya daşıyıcısı olduqda isə uşaqların **talassemiya xəstəliyi** ilə dünyaya gəlməsi ehtimalı var.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada 250 milyondan çox talassemiya daşıyıcısı və təxminən 300 min talassemiyalı xəstə var. Azərbaycanda da talassemiya geniş yayılmışdır və əhalinin 8%-i bu xəstəliyin daşıyıcısıdır. Şəki, Ağdaş, Masallı, Sabirabad, Oğuz, Göyçay rayonlarında bu xəstəliyə daha çox rast gəlinir.

Respublikada talassemiya ilə hər il 200-dən çox uşaq doğulur. Bu artım ölkəmizdə tarixən geniş yayılmış qohumlararası nikahların hesabına baş verir. Araşdırmalar zamanı müəyyən olunub ki, yad insanların evliliyindən doğulan uşaqların qüsurlu olma riski 2-4 %-dirsə, qohum evliliklərində bu göstərici 4-8 %-dir.



1 iyun 2015-ci ildən Azərbaycanda nikaha daxil olmaq istəyənlərin icbari tibbi müayinəsi tətbiq olunmuşdur. Həmin vaxtdan 28 fevral 2018-ci ilə kimi **93 min 386** nəfər müayinədən keçmiş, **14 min 894 nəfərdə** talassemiya daşıyıcılığı aşkarlanmışdır. Müayinə olunanların hər birinə həkim tərəfindən tibbi-genetik məsləhət verilmişdir.

**Gənclər! Övladlarınızın sağlamlığını əvvəlcədən düşünün.**

Vərəqə "Talassemiya ilə mübarizəyə dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Fəaliyyət Planına uyğun olaraq Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap edilmişdir.